# Uşaqları Beynəlxalq Müdafiə Günü gələcəyimizə qayğıdır

Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilk dəfə 1 iyun 1950-ci ildə qeyd olunmuşdur. BMT -nin Baş Assambleyası tərəfindən qeyd olunması qərara alınan bu gün-bundan sonra Uşaqların Beynəlxalq Müdafiəsi günü kimi tarixə düşmüşdür.

BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiya adlı sənədi uşaqların hansı dövlətdə yaşamasından asılı olmayaraq, irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, özlərinin və valideynlərinin sağlamlıq vəziyyətindən asili olmayaraq, öz hüquqlarından istifadə etməlidirlər. Uşağın bütün hüquqları əhəmiyyətlidir. Bununla belə, bəzi hüquqlar-uşağın yaşamaq hüququ, habelə bərabərlik və onun şəxsi rəyinə hörmət hüququdur.

Azərbaycan dövləti də bu Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə çalışır. Burada ulu öndərimiz H. Əliyevin sözlərinin qeyd olunması yerinə düşərdi. "Mənim üçün ən əziz nemət Azərbaycanin uşaqlaridir, Azərbaycanin gəncləridir. Çünki Azərbaycan prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanin gənclərindən və uşaqlarından asılıdır."

Konvensiyanın əsas fəlsəfi ideyası uşaq şəxsiyyətidir. Konvensiyada əsas müddəa uşağın maksimum müdafiəsidir.

1993-1998-ci illəri əhatə edən dövrdə bir sıra Prezident sərəncamları, fərmanları, hökumət qərarları verildi, beynəlxalq əlaqələr gücləndirildi, uşaqların, uşaq evlərinin tədris-metodik təcrübəsi beynəlxalq layihələrlə zənginləşdirildi və yeniləşdirildi. Bu dövr, əsasən perespektiv işlərin özülünü təşkil etdi.

Heydər Əliyevin həmin illərdə imzaladığı fərmanların, sərəncamların bir çoxu təhsilin inkişafı istiqamətində mühüm yer tutdu. Onun ayrı-ayrı görüşlərdəki çıxışları, nitqləri proqram göstərişləri kimi qəbul edilərək təhsilin, o cümlədən kiçik yaşlı uşaqları əhatə edən təhsilin yeni məzmun keyfiyyətləri qazanmasına rəvac verdi.

Uşaq hüquqlarının qorunması və bunun qanuni əsasda həyata keçirilməsi məktəbəqədər müəssisələrdə, ibtidai məktəblərdə və dərsdənkənar tədbirlərlə uşaqlara öyrədilməsi o dövrün ən aktual məsələlərindən biridir. Bu baxımdan 1998-ci il mayın 19-da Prezident Heydər Əliyev tərəfindən "Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"nun təsdiq olunması uşaq hüquqları haqqında qanunun geniş miqyasda tətbiqinə uşaq və cəmiyyət münasibətlərinin demokratik əsasda formalaşmasına, əlil, əqli və fiziki çatişmazlıqları olan uşaqların, eləcə də qaçqın və məcburi köçkun uşaqlarının, xüsusi tərbiyə müəssisələrində olan uşaqların hüquqi və sosial müdafiəsi geniş şəkildə həyata keçirilməyə başlandı.

Bu işlərin ardıcıl və davamlı olaraq inkişaf etdirilməsinə və həyata keçirilməsinə nümunəhər il Azərbaycanda 1 İyun--Uşaqların Beynəlxalq Müdafiəsi Gününün təntənə ilə qeyd olunmasıdır.

Azərbaycanda uşaqlar dövlətin sonsuz qayğısı ilə əhatə olunmuşlar və bu qayğı günü-gündən artırılır.

Hər uşaq bir çiçəkdir, gülümsəyir günəşə,
Hər ana körpəsiylə xoşbəxt olur həmişə.
Dolsun gülüşləriylə qoy sevinsin uşaqlar,
Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar...

**Natəvan ƏFƏNDİYEVA,**
**şəhər 3 saylı körpələr evi-uşaq bağçasının müdiri.**

# Fövqəladə Hallar Nazirliyinin Şimal-qərbRegional Mərkəzində "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilmişdir



Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı və Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilən tədbirdə əsas məqsəd yeniyetmə və gənclərin fövqəladə hallar sahəsində hazırlıq səviyyəsinin artırılması, onlarda şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin inkişaf etdirilməsi, eləcə də hərbi-vətənpərvərlik ruhunun aşılanması, məktəblilər arasında sağlam həyat tərzinin təbliğ edilməsindən ibarət idi.

İlk öncə qonaqlar və komandaların kapitanları tərəfindən Mərkəzin inzibati ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin büstü önünə tər güllər qoyularaq xatirəsi ehtiramla yad edildi. Daha sonar yarış açıq elan olundu. Dövlət himni səsləndirildi. Komandaların kapitanlarının hazırlıq haqda məruzələri dinlənildikdən sonar Şimal-qərb Regional Mərkəzinin rəisi, mayor Sadiq Bəkirli, Qəbələ rayon Gənclər və İdman idarəsinin rəisi Fəxri Soltanov komandaları salamladılar və yarışda onlara uğurlar, sağlam mübarizə arzuladılar. Komandalar marş sədaları altında tribuna qarşısından keçdikdən sonar yarışa start verildi.

Yarışlarda Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən rayonlarının ümumtəhsil məktəblərinin komandaları güclərini sınadılar.

Yarış üç mərhələ - yanğın estafeti, gənc ekspertlər və komandaların təqdimatı müsabiqəsi üzrə keçirildi.

Gərgin mübarizə şəraitində keçən yarışların yekunlarına əsasən, İsmayıllı rayonu N.Behdiyev adına 6 nömrəli tam orta məktəbin komandası I, Qəbələ rayonu T.Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin komandası II, Qax şəhər 3 nömrəli məktəb-litseyin komandası isə III yerə layiq görüldülər. Qalib komandalar diplom və fəxri fərmanlarla təltif edildilər. I yeri tutan komanda "Gənc xilasedici və yanğınsöndürən"lərin ümumrespublika yarışlarının final mərhələsində iştirak etmək hüququ qazandı.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

# Müsəlmanların saflaşma ayı

Bu il oruclıq ayı kimi tanınan, islam aləmində müqəddəs ay sayılan Hicri təqviminin Ramazan ayı 7 iyun tarixindən başlanmışdır. 7 iyun Ramazan ayının-orucluğun ilk günüdür. Bu gündən başlayaraq bütün dindar müsəlmanlar oruc tutur, imkanı olanlar günün əsas hissəsini ibadətlə keçirirlər. Ramazan ayı İslam inanclarına görə müqəddəs ay sayılır. İslamın müqəddəs kitabı Qurani-Kərim bu ayda Allahın rəsuluna-həzrət peyğəmbər Məhəmmədə (S.Ə.S) vəhy şəklində mənz bu ayda çatdırılmışdır. Müsəlmanların Mədinədən müqəddəs şəhər Məkkəyə dönüşü, Məkkənin bütünlüklə müsəlmanların nəzarətinə keçməsi Ramazan ayında baş vermişdir.

Müsəlmanların oruc tutmasının fərz olması Hicri tarixinin (622-ci ildən başlayır) ikinci ilindən başlanmışdır. Müsəlmanlığa qədər də insanların oruc tutması halı olmuşdur. Bu barədə Qurani-Kərimdə deyilir. «Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi sizə də vacib edildi. Bəlkə (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz (əl Bəqərə surəsi 183-cü ayə).

Ancaq müsəlman orucu ilə bu dinə qədər olan dinlərə qulluq edənlərin tutduğu oruc arasında ciddi fərqlər vardır. Bir çox inanclara görə oruc tutmaq ancaq müəyyən qidalardan (ən çox ətdən) istifadə etməməkdən ibarət olmuş, müsəlmanlara orucluq vaxtı qadağan olunan bir sıra əməllərə yol verilmişdir.

Müsəlmanlar orucluq vaxtı günün işıqlı vaxtı ümumiyyətlə, heç bir qida və su qəbul etməməlidirlər. Doğrudur bu orucluğun əsas şərtidir. Ancaq orucluğun şərtləri təkcə ac və susuz qalmaqla bitmir. Oruclu müsəlman bu müddətə dünyanın bütün zövqlərindən çəkinməli, aclığı və digər məhrumiyyətləri bütünlüklə hiss etməlidir. Bununla müsəlmanlar Qurani Kərimin tələb etdiyi kimi heç olmazsa ildə bir ayda olsa cəmiyyətin bütün üzvləri ilə bərabər vəziyyətə düşməli, zövqü-səfa içərisində yaşayan müsəlman aclığın, məhrumiyyətin nə olduğunu hiss etməli, ehtiyac içərisində olan din qardaşlarının halını başa düşməlidir. Oruclu adam bütün pis əməllərdən uzaqlaşmalı və bu tədricən təkcə Ramazan ayında yox, bütün həyatı boyu bir vərdişə, qanuna çevrilməlidir. Bəli müqəddəs Quran buyurur ki, Oruc tutmaq ona görə vacibdir ki, bunun vasitəsilə müsəlmanlar pis əməllərdən çəkinsinlər. Çox təəssüf ki, bəziləri orucu sutkanın müəyyən vaxtı ac qalmaq kimi başa düşür, bununla da guya özlərini müsəlmanlığın bu şərtinə əməl etmiş sayırlar. Ancaq göründüyü kimi oruc tutmaq ac qalmaqla bitmir, bütün pis əməllərdən çəkinməklə tam şəkil almış olur. Həm də təkcə Ramazan ayında yox, bütün şüurlu həyatı boyunca Ramazan orucluğu insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. Bu ayda imanla nəfs savaşır, əsil inanclı müsəlmanda iman qələbə çalır. İnancı zəif və pərdə olanlarda isə nəfs hökmranlığını sürdürür.

Yuxarıda qeyd etdiyimiz kimi müqəddəs kitabımız Qurani-Kərim Ramazan ayında nazil olmağa başlamışdır. Ancaq bunun Ramazanın hansı günündə baş verdiyi tam məlum deyil. Güman edilir ki, Qurani-Kərim Ramazan ayının son on günlüyünün tək günlərinin birində nazil olmuşdur. Bu günlər Ramazanın 19, 21, 23, 25-i və 27-nə düşür ki, həmin gecələrə qədr gecəsi deyilir. Müsəlmanlar həmin gecələr sübhə qədər yatmamalı, ibadət və zikrlə məşğul olmalıdırlar.

Orucluğun başa çatdığı gün yəni Şəvval ayının birində (bu il miladi tarixi ilə iyul ayının 6--da) müsəlmanlar Fitr bayramıı keçirirlər. Həmin gün müsəlmanlar bir-birini, qohumlarını, yaxınlarını təbrik edir, vəfat etmiş yaxın adamlarının qəbirlərini ziyarət edir, onların ruhuna Qurandan ayələr oxudurlar.

Orucluq qurtarana yəni Fitr bayramına qədər hər bir müsəlman ailəsi ailə üzvlərinin sayına uyğun olaraq kasıblara fitrə verirlər ki, onlar da Fitr bayramını kecirsinlər.

Fitrə təxminən 3 kq buğda, xurma və kişmiş dəyərində nəzərdə tutulub. Əlbəttə, bu rəqəmlər minimumdur. Kifayət qədər maddi sərvətə malik olan ailələrin daha çox kasıba və daha çox miqdarda fitrə verməsi məqbul sayılır.

Bir neçə kəlmə də insanlar arasında yayılmış «Qara bayram» məsələsi haqqında. İslam bayramları içərisində «Qara bayram» ifadəsi yoxdur. Sadəcə olaraq ötən bayramdan bu bayrama qədər yaxınlarını itirmiş şəxslərin yaxın adamlarının təsəlli olsun deyə həmin ailələrə baş çəkmələri, mərhumun ruhuna dualar oxumaları məqbul sayılır. Uzaq-yaxın hamının «Qara bayramıdır» deyə yaxınlarını itirmiş adamların evlərinə axışmaları, sanki yas mərasimi kimi əhval-ruhiyyə yaratmaları dinimizdə yoxdur.

**Qüdrət SƏMƏDOV**